# AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli TÜRKSOY medalı ilə təltif olunub





18 may 2025-ci ildə Şəki şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Mahmud Kaşqari adına Beynəlxalq Fondun təşkilatçılığı ilə Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr olunmuş beynəlxlaq konfrans keçirilmişdir. Tədbirdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün, Şimali Kıbrıs Türk Cümhuriyyətinin təmsilçisi Ufuk Turqaner, Qazaxıstan Respublikasının səfiri Alim Bayel, Qırğızıstan Respublikasının səfiri Maksat Mamitkanov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktoti Raimkulova, TÜRKSOY-un Baş katibi, Qırğızıstan Respublikasının Xalq yazıçısı Sultan Raev, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Milli Məclisin deputatı, Mahmud Kaşqari adına Beynəlxalq Fondun prezidenti Cavanşir Feyziyev, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və digər təşkilatların nümayəndələri, ziyalılar iştirak etmişlər.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirin təntənəli surətdə Şəkidə qeyd edilməsinin əhəmiyyətini xüsusi qeyd etmişdir: "Azərbaycanda yeni nəsillərin vətənpərvərlik, azərbaycançılıq ruhunda tərbiyə olunması üçün böyük əhəmiyyətə malikdir. Bu tədbir həm Bəxtiyar Vahabzadənin sənətinə, şəxsiyyətinə, xidmətlərinə böyük ehtiramın ifadəsidir, həm də onu yetirən bu torpağı, Şəkidə olan bu inkişafı onun arzu elədiyi şəkildə görmək və göstərməklə şairin ideallarının yaşaması deməkdir. ...Bu gün böyük Zəfərlər qazanmış ölkəmizdə sənətə, sənətkara göstərilən hörmət və ehtiram Azərbaycanın böyük gələcəyinə işıq salan yeni nəsillərin Bəxtiyar Vahabzadənin timsalında yetişməsi üçün bir örnəkdir".

Mahmud Kaşqari adına Beynəlxalq Fondun prezidenti, Milli Məclisin deputatı Cavanşir Feyziyev də çıxışında Bəxtiyar Vahabzadənin Azərbaycanın, eləcə də türk dünyasının ən sevimli bəxtiyar şairlərindən bir olduğunu yaradıcılığını yüksək qiymətləndirmişdir: "...Onun arzuları, ideyaları təkcə Şəkiyə, öz doğulduğu şəhərə yox, bütün Azərbaycana, türk dünyasına məxsusdur. Bəxtiyar Vahabzadə öz yaradıcılığı, düşüncəsi ilə milyonlarla insanın qəlbinə yol tapa bilib, onların ürəyində özünə məhəbbət, sevgi qazanıb". Konfransda çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Bəxtiyar Vahabzadə haqqında demişdir: "Sadəcə Azərbaycan xalqının deyil, eyni zamanda, bütün türk dünyasının qəlbində özünə yer etmiş, əsərləri, şeirləri, düşüncələri ilə millətimizin müştərək hafizəsində silinməz izlər buraxmış böyük bir şairdir. Onun şeirlərində Vətən, millət, hürriyyət, insan haqları və milli kimlik məsələlərinin həmişə önə çəkilmişdir". Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel Bəxtiyar Vahabzadənin yaradıcılığında milli ruh, insanlıq dəyərləri, azadlıq ideyaları, Vətənə, tarixə bağlılıq daima ön planda olduğunu, təkcə bir şair deyil, vətəndaşlıq mövqeyinə sahib bir insan kimi yaddaşlarda dərin iz qoyduğunu xüsusi vurğulamışdır. AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli öz çıxışında Bəxtiyar Vahabzadənin təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ən qüdrətli söz ustalarından biri olduğunu, əsərlərinin Türkiyədə, digər türkdilli ölkələrdə də sevə-sevə oxunduğunu qeyd etmişdir.

Tədbirdə TÜRKSOY-un Baş katibi, Qırğızıstan Respublikasının Xalq yazısısı Sultan Rayev AMEA-nın fəxri professoru adına layiq görülmüş və Kaşğari medalı ilə təltif olunmuşdur. TÜRKSOY-un Baş katibi, Qırğızıstan Respublikasının Xalq yazıçısı Sultan Rayev AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədlini TÜRKSOY medalı ilə təltif etmişdir.

Qeyd edək ki, professor Nadir Məmmədli 2020-ci ildə Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi "Bəxtiyar Vahabzadə" mükafatına da layiq görülmüşdür. O, 2023-cü ildə Türk Dil Qurumunun Fəxri üzvü seçilmişdir. Türk dünyasının ən qiymətli kitablarından olan Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsərinin (3 cilddə) Azərbaycanda nəşrinə (ön söz, şərhlər, tərtib) və türk mədəniyyətini dünyada təbliğ etdiyinə görə "Beynəlxalq Mahmud Kaşğari mükafatı"na da layiq görülmüşdür.